

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 126 (21.787)

*7 iyul 2017-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



İyulun 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufsla görüşüb.

Ali Məclisin Sədri Azərbaycana səfir təyin olunması münasibətilə Bert Skufsu təbrik etdi, ikitərəfli əlaqələrin inkişafında ona uğurlar arzuladı. Ölkələrimiz arasındakı münasibətlərə uyğun olaraq Naxçıvan-Belçika əlaqələrinin inkişaf etdiyini bildirən Ali Məclisin Sədri iqtisadi-ticarət və əczaçılıq sahəsindəki əməkdaşlıqdan danışdı, təhsil sahəsində əlaqələrin yaradılmasının və iş adamları arasında görüşlərin keçirilməsinin əhəmiyyətini vurğuladı.

Səfir Bert Skufs səmimi qəbula görə minnətdarlıq etdi və Naxçıvana səfərinin mühüm əhəmiyyətə malik olduğunu bildirdi. Belçika Krallığı ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələrin məmnunluq doğurduğunu qeyd edən qonaq hər iki tərəfin maraqları daxilində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan: İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadıldığı məkan

*İslam mədəniyyətinin yaşadılması, onun daha da genişləndirilməsi bu gün sayı 2 milyarda çatan müsəlman dünyasının yüksək mənəvi dəyərlərinin qorunması üçün olduqca zəruridir. Xalqımızın qədim tarixi keçmişi ərzində islami dəyərlərə sadiqliyi, müstəqil Azərbaycan dövlətinin bu dəyərlərə sahib çıxaraq onu daha da zənginləşdirməsi yolunda atdığı addımlar bu baxımdan əhəmiyyətlidir. Bu, ölkəmizin təkcə İslam dünyası ilə deyil, bütün tərəqqipərvər bəşəriyyət ilə qurduğu çox uğurlu dialoqun bariz nümunəsidir. 2009-cu ildə ölkəmizin paytaxtı Bakı şəhərinin İslam mədəniyyətinin paytaxtı olması və gələn il respublikamızın digər elm və mədəniyyət mərkəzinin, beş min ildən çox tarixə malik Naxçıvan şəhərinin bu missiyanı yerinə yetirməyə hazırlaşması Azərbaycanın İslam dünyasında nə qədər vacib bir məkan olduğunu bir daha sübut edir.*

"İslam Mədəniyyəti Paytaxtı" bütün İslam aləmini əhatə edən genişmiqyaslı bir layihədir. Hər il Asiya, ərəb ölkələri və Afrika qitəsi regionları üzrə bir şəhərin İslam mədəniyyətinin paytaxtı seçilməsi onların islami dəyərlərə və mədəniyyətlərarası dialoqa verdiyi töhfələrdən qaynaqlanır. 2005-ci ildə İslam dünyasının mərkəzi Məkkə şəhərinin paytaxt elan olunması ilə başlayan bu layihədə yer alan müsəlman ölkələrinin şəhərləri arasında ölkəmizin paytaxtı ilə yanaşı, Naxçıvan şəhərinin də yer alması bir sıra cəhətlərinə görə olduqca diqqətçəkicidir. Belə ki, çox az sayda ölkənin iki şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi, bu mənada, respublikamızın bu coğrafiyadakı nüfuzundan xəbər verir. Çünki Azərbaycan xalqı İslamın ali dəyərlərinə qəlbən bağlılığı, heç bir çətin sınaq qarşısında inancından dönməməsi, dünyaya örnək olan tolerantlığı və qonaqpərvərliyi ilə daim seçilib. Azərbaycanlı din və elm xadimlərinin, mütəfəkkir, şair, yazıçı, aşıq və memarların irs qoyduğu əsərlərdə açıq görünən insana sevgi, qadına hörmət, qocaya və uşağa nəvaziş kimi dərin humanist duyğular İslam mədəniyyəti ilə həmahəng səslənən ən dəyərli çağırışlardır. Müstəqil Azərbaycan Respublikasının hər bir qarışında sivil cəmiyyət quruculuğu istiqamətində həyata keçirilən bütün işlərdə sosial ədalət və humanizm prinsiplərinin ön planda tutulması, insan hüquq və azadlıqlarına verilən diqqət ölkəmizə təkcə İslam dünyasında deyil, eləcə də beynəlxalq aləmdə böyük nüfuz qazandırıb. Azərbaycan təkcə müsəlmanlar üçün deyil, digər inanc sahiblərinin də rahat yaşadığı nadir ölkədir. Respublikamız İslam tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərə, onların adını daşıyan ziyarətgahlara və digər müqəddəs yerlərə son dərəcə həssas münasibət göstərilən bir məkan kimi bütün müsəlmanlar tərəfindən sevilir.

"Qoca Şərqin qapısı" adlandırılan muxtar respublikamızın paytaxtı Naxçıvan da İslam dünyasının tanınmış şəhərlərindəndir. 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilən zaman məhz Azərbaycanın bu qədim diyarının İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rolu əsas götürülüb. Naxçıvan şəhərinin təkcə ölkəmizin deyil, bütün Şərq-İslam aləminin dövlətçilik və fəlsəfi düşüncə mərkəzi kimi qazandığı şöhrət də bu məsələdə öz həlledici rolunu oynayıb.

2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olacaq Naxçıvanda nəzərdə tutulan işlərin ən yüksək səviyyədə yerinə yetirilməsi üçün ölkə başçısı cənab İlham Əliyevin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Təşkilat Komitəsinin yaradılması, ötən il komitənin ilk iclasında Tədbirlər Planının layihəsinin müzakirə olunması bu mühüm tədbirin muxtar respublikamız, ölkəmiz və eləcə də bütün İslam aləmi üçün yaddaqalan bir səviyyədə keçiriləcəyinə zəmanət verir.

İslam mədəniyyətinin paytaxtı kimi dünyanın Naxçıvandan, onun timsalında doğma Azərbaycanımızdan nümunə götürəcəyi bir çox yüksək mənəvi dəyərlər vardır. Əminliklə deyə bilərik ki, Naxçıvana gələn hər bir qonaq, hər bir din xadimi burada insan amilinə verilən diqqətə heyran qalacaq.

Şübhəsiz, təlatümlü tarixi dövrlərdən keçmiş, yadelli işğalçılara qarşı sinə gərmiş Naxçıvanın bugünkü iqtisadi-mədəni nailiyyətləri ilə yerində tanış olmaq, blokada vəziyyətinə baxmayaraq, burada qazanılmış hərtərəfli uğurların sirrinə agah ola bilmək üçün səyyahlar gözəl imkanlar qazanacaqlar. Qonaqlar biləcəklər ki, Naxçıvandakı dünyaca məşhur müqəddəs ziyarət məkanlarının ən sərt rejimlər dövründə belə, unudulmaması, müstəqillik dövrümüzdə onların qorunub, bərpa edilərək gələcək nəsillərə çatdırılması məqsədilə görülmüş əməlisaleh işlər bu gün qazandığımız uğurların bir hissəsini təşkil edir. Müsəlman dünyası və elə bütün dünya görəcək ki, bu savabı qazanan hər bir naxçıvanlı ən çətin günündə yenə də Rəbbinə sığınaraq, Yaradanın xalqımıza əta etdiyi liderin ətrafında sıx birləşib, bu ulu mədəniyyəti hamılıqla necə qoruyub saxlaya biliblər! Savab qazanmağın tək yolunun şəfqət, sədaqət və birlik olduğunu sınamış qədim və müasir Naxçıvan, beləcə, bu gün müsəlman dünyasının düşdüyü çalxantılardan, bəşəriyyəti narahat edən böhranlardan qorunmağın yolunu göstərən inanc dolu bir məmləkət kimi yenidən tanınacaq. Bu, hamının asayiş və hörmət içində yaşayıb, öz gələcəyini birgə qurduğu, məscidlərindən azan səsi, evlərindən uşaq gülüşü eşidilən qədim və müasir Naxçıvanın dünyaya səsi olacaq.

**✍ Əli CABBAROV**

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı fəaliyyətini genişləndirir

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının bu il martın 16-da keçirilən iclasında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri fəaliyyətin təşkili ilə bağlı konkret tapşırıqlar vermiş, yeni istiqamətlər müəyyənləşdirmişdir.

Ötən dövrdə verilən tapşırıqların icrası diqqətdə saxlanmışdır. İyun ayında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və onun rayon (şəhər) təşkilatlarında 8 İdarə Heyətinin iclası və 15 müxtəlif tədbir keçirilmişdir. Həmçinin Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və rayon (şəhər) təşkilatları Gənclər Birliyinin xətti ilə 8 müxtəlif tədbir keçirmiş, bu tədbirlərdə 600-ə yaxın yeniyetmə və gənc iştirak etmişdir. Qadınlar Şurası tərəfindən isə kənd yaşayış məntəqələrində qadınlarla görüşlər təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi tərəfindən 28-30 iyun tarixlərdə Ağbulaq İstirahət Mərkəzində gənclərin "Yay məktəbi" təşkil olunmuşdur. "Yay məktəbi"ndə Naxçıvan Dövlət Universitetindən 5 nəzarətçi-müəllim və 60 tələbə iştirak etmişdir.

İyun ayında gənc və yaradıcı qüvvələrin partiya sıralarına cəlb edilməsinə diqqət artırılmış, 196 nəfər partiya sıralarına qəbul edilmişdir ki, onlardan da 192-si gəncdir.

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

## Daşınmaz əmlak və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələr icra olunur

Daşınmaz əmlak və torpaq münasibətlərinin nizamlanmasında fəaliyyətin təkmilləşdirilməsi, vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınması zamanı operativliyin təmin edilməsi, muxtar respublikada torpaqlardan təyinatı üzrə səmərəli istifadəsinə dövlət nəzarətinin gücləndirilməsi 2017-ci ilin ilk altı ayında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrasının təmin edilməsi məqsədilə ötən 6 ayda Naxçıvan şəhəri üzrə 4216, Şərur rayonu üzrə 878 daşınmaz əmlak obyekti plana alınmışdır. Həmçinin Naxçıvan şəhər inzibati ərazi vahidinə daxil olan bütün bələdiyyələrin, Ordubad rayonu üzrə 15 bələdiyyənin, Culfa rayonu üzrə 10 bələdiyyənin sərhəd xəritələri və müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmış və torpaqların növləri üzrə uçotu aparılmışdır.

Şərur, Ordubad, Culfa, Şahbuz və Kəngərli rayonlarının yay otlaqlarının xəritəsi, Babək və Kəngərli rayonlarının dövlət ehtiyat fondu və qış otlaq sahələrində yerləşən əkinəyararlı torpaq sahələrinin yerquruluşu planı hazırlanaraq istifadə üçün aid dövlət qurumlarına təqdim edilmişdir. Şərur rayonu üzrə 16, Babək rayonu üzrə 26 bələdiyyənin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanaraq uçotu aparılmışdır. Muxtar respublikanın geoloji və faydalı qazıntı xəritələri, sənaye xəritəsi, Naxçıvan şəhəri üzrə inzibati ərazi dairələrinin bölgü sxemi, Naxçıvan şəhərinin 1, 2, 3 və 4 nömrəli sahə inzibati ərazi dairələrinin yerquruluşu planı, Ordubad rayonunun Düylün, Çənnəb, Üstüpü və Məzrə kəndlərinin avtomobil yollarının planı hazırlanaraq aid təşkilatlara göndərilmişdir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın müvafiq bəndlərinin icrası məqsədilə Şərur rayonunun Çomaxtur, Şahbuz rayonunun Kiçikoba, Ordubad rayonunun Düylün, Sədərək rayonunun Sədərək kəndlərində yerli icra nümayəndələrinin və bələdiyyələrin iştirakı ilə əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması və torpaqlardan səmərəli istifadə ilə bağlı maarifləndirici tədbirlər keçirilmişdir.

İlin birinci yarısında daşınmaz əmlakın dövlət reyestrində 2432 daşınmaz əmlak obyekti qeydiyyata alınmış, 1873 texniki sənəd hazırlanmışdır. Yeni yaranmış 410 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Vətəndaşların rahatlığının və işlərin operativ təşkilini təmin etmək üçün muxtar respublikanın 46 yaşayış məntəqəsində 404 vətəndaşa səyyar xidmət göstərilmişdir. Komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlərə 147 müraciət daxil olmuş, qanunvericiliklə müəyyən edilmiş qaydada icra edilmişdir.

Muxtar respublikanın torpaq fondundan səmərəli istifadəyə dövlət nəzarətinin gücləndirilməsi və vətəndaşların mülkiyyət hüquqlarının dövlət reyestrində qeydiyyata alınmasında operativliyin təmin edilməsi istiqamətində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi səylərini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*O Naxçıvandır, tarixini qeyrətdən, mərdlikdən, mübarizlikdən yazmış, bu gününü daim yeniləşən gözəllik üstündə quran həmin Naxçıvan... Düşmən Ermənistanın, qardaş Türkiyənin və İranın əhatəsində fiziki sərhədləri ilə bir adadır. Həm də tək buna görə yox, eyni zamanda misilsiz çətin şəraitdə və mürəkkəb imkanlar çərçivəsində qeyri-adi sürətlə inkişaf etdiyinə görə də adadır.*

# Yer üstündə sərvəti var, Hər bir eldə şöhrəti var – Hansı məkandır...(?)

Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində onu ağır blokada şəraitinə məhkum edən açıq və örtülü düşmənlərin hesabları başqa idi: Naxçıvanın məhv olacağına və əhalisinin kütləvi şəkildə köç edəcəyinə ümid bəsləyərək qara-qura planlar cızır, canını qurtarıb İrana, Türkiyəyə, başqa yerlərə səpələnmiş naxçıvanlıların miskin taleyini xəyalən göz önünə gətirərək feyzyab olurdular. Beləcə, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan bir-birinə tam əks qüvvələrin arasında rəngi boz, cüssəsi zəif, bənizi solğun, mənən düşkün, gələcəyə inamsız görünən səssiz və hərəkətsiz bir məmləkət halında idi. Məmləkəti xilas etmək üçün çarpışan milli dövlətçi qüvvələrin onun bütün ağırlıqlarını öz çiyinlərinə almağa çalışdığı bir vaxtda Ermənistanın timsalında açıq və bəzi pərdələnmiş düşmənlər bu diyarın qanına susamış vəziyyətdə öz məkrli planlarının arxasında idilər. Tarixlər qədər yaşı olan xeyir-şər qarşıdurmasının başqa bir formada davamı və təzahürü olan bu amansız qarşıdurmanın müsbət sonluğuna ümidlə yanaşanlar bir güclü arqumentə söykənirdi: Naxçıvanın "əjdaha" planlarından nicatı naminə mücadiləyə atılan xeyir qüvvələrin liderliyini təcrübəli və ağıllı dövlət xadimi Heydər Əliyev öz üzərinə götürmüşdü. Ulu öndər Heydər Əliyevin başlatdığı bu yolda nələrin baş verdiyini yalnız bu prosesin iştirakçıları bilir, sonundan isə hamının xəbəri var. Naxçıvan daim yeniləşən, dəyişən, hərəkətli, cazibədar məkana çevrilib. Çevrilməsəydi, onun insanlarına xas qonaqpərvərlik, mərdlik, mübarizlik, vüqar, əzəmət, kişilik kimi dəyərləri də həmişəlik itirilə bilərdi. Demək, Naxçıvanı "a"-dan "z"-dək dəyişə bilənlər bu dəyişmə prosesinin içində məmləkətin xarakterik regional və milli-mənəvi dəyərlərini də xilas və hifz edə biliblər.

Muxtar respublikanın nə qədər əzəmətli şəkildə dəyişdiyinin tam mahiyyətini kiçik bir müqayisə ilə ortaya qoymaq olar. Ancaq belə müqayisəni, təəssüf ki, tam obyektiv səbəbə görə hamı yox, yalnız Naxçıvanın 90-cı illərdəki gün-dirriyini öz gözü ilə görmüş və onu dəyişdirən insanlar apara bilər. Hansılar ki, muxtariyyətin o zamanı ilə bərabər bu gününü də çox yaxşı xatırlayır və görürlər. Naxçıvanın dəyişmə prosesinin, bəlkə də, adi görünən, ancaq çoxmahiyyətli xarakterik bir xüsusiyyəti var – Naxçıvanın tək paytaxtı yox, tək rayon mərkəzləri yox, tək kənd mərkəzləri yox, külli-halı dəyişir, meşələri, çölü-biyabanı, təpəlikləri, düzənləri, yol qıraqları, hətta künc-bucaqları dəyişir. Çünki Naxçıvanı kosmetik əməliyyatla kiməsə, harasa göstərmək xatirinə dəyişmirlər, insanın zövq ala biləcəyi məkana çevirmək üçün dəyişirlər.

Cəmi bir neçə ay əvvəl ölkənin aparıcı media rəhbərlərindən ibarət bir qrupla Naxçıvanda olmuşduq. Bu yaxınlarda KİVDF-nin təşkilatçılığı ilə geniş tərkibdə media rəhbərləri sırasında Naxçıvanda yenidən oldum. Naxçıvanın iqtisadiyyatının, aqrar sektorunun, biznes, turizm, təhsil, mədəniyyət aləminin fasiləsiz dəyişdiyini, dəyişməkdə davam etdiyini yəqinləşdirmək üçün bu beş-altı ay da kifayət etdi. Nəinki qurub-yaradırlar, hətta yaradılanların solmasına, köhnəlməsinə, zəifləməsinə, sıradan çıxmasına belə, imkan vermirlər.

Beləliklə, Naxçıvanın dünəni, bu günü və sabahı bir-birinə bağlanılmaqla bərabər, onun müxtəlif zamanlarda yaradılmış maddi və mənəvi dəyərlərinin də bir-birinə calanması ilə canlı təbii-ictimai kompozisiya yaradılır. İllər öncə döşənmiş asfalt yollar, yol qıraqlarındakı tretuarlar ilkin təzə görünüşünü itirmir, yaşıllıq zolaqları azalmır, bir vaxtlar nadir sayılan heyvan növləri indi az qala sürü halını almaqdadır. Bəlkə, kimsə inanmaz ki, erkən yay fəslində Batabat meşələrindən keçən magistraldan o yan-bu yana adlayan kiçik qaban sürülərini də öz gözlərimizlə gördük. Heyvanat, bitki aləmi bərpa olunursa, yerli tələbatı ödəyən istehsal strukturları yaradılırsa, ağır və xüsusilə ağır cinayətlərin kökü kəsilirsə, bu, arxasında misilsiz insan əməyinin dayandığı unikal nailiyyətlərdir.

Naxçıvanın son illər ən çox artan gerçəkliklərindən biri də turizmlə bağlıdır. Naxçıvana ötənilki səfərimizdə də bu mövzunu aktual səviyyədə gördük. Ancaq bir neçə ay əvvəl məsələyə mövcud olan baxışın özü də dəyişib. Aylar öncə muxtariyyətdə əlaqədar rəsmiləri, iş adamlarını, əsasən, bu sual düşündürürdü: "Naxçıvanın turizm potensialını dünyaya necə açaq?" Artıq sualın xarakteri dəyişib və bu dəyişiklik sözügedən prosesdəki müsbət dinamikanı, şübhəsiz, ifadə edir. İndi insanlar Naxçıvanın turizm potensialının dünyaya açılması sahəsində görülmüş ilk işlərin bəhrələrini müzakirə edir. Mütərəqqi meşələrindən ... Mütərəqqi dünyanın, hətta sıravi uçqar rayon və kənd sakinlərinin davranışlarında da görmək mümkündür. Sıravi adamların kənd turizmi, öz evlərinin bir guşəsini əcnəbi turistlərin istifadəsinə şəxsi qazanc məqsədləri ilə verməsi barədə danışmaqları, həqiqətən də, qürurverici tərpənişdir.

Naxçıvan 90-cı illərin əvvəllərinə xas miskin və ümidsiz görüntüdən sürətlə uzaqlaşır: elə o zamanlardan əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf, sabitlik, tərəqqi, dəyişmə, yenilənmə yolu ilə... Bu yol Naxçıvanı sovet dövründən miras qalmış miskinlik və kasıbçılıq girdabında məhv etmək istəyən qara qüvvələrin sinəsinin üstündən keçən tarixi qələbə yoludur... Bu yolun məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, onunla başladığını isə burada heç kəs unutmur. Cəmi 420 eksponatla fəaliyyətə başlamış Heydər Əliyev Muzeyində hazırda 4500-dən çox maraqlı eksponatın toplanması və üzə çıxarılmasında ictimaiyyətin, alim və ziyalıların fəal iştirakı buna sübutdur. Təsəvvür edin ki, Heydər Əliyev Muzeyi həm də ən müasir tədris texnologiyalarına malik tədris korpusuna çevrilib. Muxtariyyətin məktəb fənlərinin bir sıra dərsləri nəinki bəzi hallarda muzeydə keçilir, həm də bu dərslər onlayn rejimdə respublikanın 200-dən artıq orta məktəbində şagirdlər tərəfindən birbaşa izlənir. "İnkişaf daha necə olar ki?" deyimi bu gün muxtariyyətin tək təhsil yox, bütün sahələrini qat-qat açmaq üçün ünvanlanan sualdır.

Naxçıvanın 90-cı illərin əvvəllərinə xarakterik miskin mənzərəsini hələ də unutmayanlar üçün son gördüklərimizdən bir müqayisə faktı da deyim. Muxtariyyətin elə o zaman da ən ucqar nöqtəsi Sədərək idi. Həmişə düşmənlə üz-üzə idik. O zaman Ali Məclisin Sədri vəzifəsində çalışan görkəmli dövlət xadimi Heydər Əliyev Ermənistan rəhbərliyi ilə sərhədlərdə atəşkəs barədə razılaşma danışıqlarını çox yöndəmsiz bir "budka"da aparmışdı. Başqa alternativ də yox idi. Səfər zamanı Sədərəkdə ən yüksək səngərdəki Milli Ordumuzun məntəqələrindən Ermənistan tərəfə – Arazdəyənə baxdıq. Ermənistan hələ də 90-cı illərin əvvəllərində Naxçıvana da aid olan o miskin və kasıb mənzərədə idi, dəyişməmişdi – yollar çala-çuxur, evlər yöndəmsiz, avtomobillər sınıq-salxaq, sovet istehsalı... Sədərəyin ucqarında isə ən müasir görüntülü yollar, hərbi və sosial infrastruktur obyektlər.., gözoxşayan bir mənzərə... Eyni abad və yeniləşməkdə olan mənzərəni muxtariyyətin başqa uçqarlarında – Şahbuzda, Ordubadda da gördük... Ermənistanla sərhəddə yerləşən bu guşələrin göz ləzzəti bizə, gözdağı ermənilərə düşür...

Naxçıvanda olarkən burada saysız ürəkaçan hadisələrlə qarşılaşdıq. Sədərək rayonunun Heydərabad qəsəbəsində olarkən məlumat aldıq ki, qəsəbə düşmənlə hava xətti ilə 500 metr məsafədə yerləşir. Onu da vurğulayaq ki, Heydərabad qəsəbəsi 1990-cı ildə əsl döyüş meydanına çevrilib və bunun nəticəsində də 1992-ci ildə sakinlər öz evlərindən köçürülüb. Sonradan onlar evlərinə qayıtsa da, yaşayış binaları bərbad vəziyyətdə olub. Bu səbəbdən də qəsəbə 2010-cu ildə tam yenidən qurulub. 84 yeni yaşayış mənzili tikilərək və ya yenidən bərpa edilərək sakinlərin istifadəsinə verilib. Qeyd edək ki, hazırda qəsəbədə 450 sakin yaşayır. Sözsüz ki, düşmən düşmənçiliyini davam etdirir, ara-sıra atəşkəsi pozur, ancaq sakinlər mərdlik, cəsarət göstərərək öz evlərini tərk etmir.



Biz Sədərək Tarix-Diyarşünaslıq Muzeyinə də getdik. Son illər yaradılan muzeydə Naxçıvan tarixinə, yerli mühitə aid çoxlu eksponatla tanış olduq. Burada tarixin həm qədim, həm də çağdaş nümunələri sərgilənir. Muzeyin fondu zəngindir və muzey əməkdaşlarının səyilə bura daim yeni eksponatlar, materiallar cəlb edilir.

Naxçıvanda təhsilin yüksək səviyyədə inkişaf etdiyini danmaq mümkün deyil. Düşmənlə nəfəs-nəfəsə dayanan Sədərək kənd 1 nömrəli tam orta məktəbdə olarkən də bunun bir daha şahidi olduq. 810 yerlik məktəbin 2014-cü ilin yanvar ayından istifadəyə verildiyini və burada 726 nəfər şagirdin təhsil aldığını öyrəndik. Sədərək kənd 1 nömrəli tam orta məktəbin keçənilki 45 məzunundan 15 nəfərin ali məktəbə daxil olması, əlbəttə ki, bir kənd məktəbinin böyük uğuru sayılmalıdır. Qəbul imtahanlarının birinci mərhələsində isə 2 şagird 500-dən çox bal toplayıb.

Günü-gündən abadlaşan Ordubad rayonunun zəngin tarixə malik olduğu sirr deyil. Rayonda olarkən Ordubad şəhərindəki tarixi Qeysəriyyə binasında fəaliyyət göstərən Tarix-Diyarşünaslıq Muzeyinə də baş çəkdik. Muzeyin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Vilayət Bağırov bizə Ordubad abidələri və muzeylə bağlı ətraflı məlumat verdi. Qeysəriyyə abidəsinin tarixindən danışan muzey direktoru bildirdi ki, abidə XVII əsrə aiddir. "Qeysəriyyə" sözünün mənasına gəlincə, öyrəndik ki, bu, keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahiratın satışı məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə tikililər dünyada üç yerdədir. Onlardan biri Səmərqənddə, digəri Təbrizdə, üçüncüsü isə Ordubadda yerləşir. O da bəllidir ki, Ordubad tarixən ticarət, mədəniyyət, sənətkarlıq məkanlarından olub. Dünyanın hər bir yerindən bura səyyahlar, tacirlər gəlib, bu füsunkar məkanı gəzib-dolaşıblar. Muzeyə çevrilənə qədər Qeysəriyyə binası müxtəlif məqsədlər üçün istifadə edilib. Bina "Zorxana" kimi də fəaliyyət göstərib. Həmin dövrdə İrandan, Türkiyədən, Həmədandan və başqa məmləkətlərdən pəhləvanlar bura gələrək öz gücünü sınayıb. Məlumatlara görə, kim qalib gəlirdisə, yarışı izləmək üçün hücrələrdə oturan xanlardan ənam alırdı. XIX əsrin sonlarında Ordubadda yaranmış "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri də bu binaya toplaşaraq öz şeirlərini oxuyar, ədəbi müzakirələr apararmış. XX əsrdə bu abidə bir müddət ipək sarıyan sex kimi fəaliyyət göstərir. 1978-ci ildə isə ordubadlı memar Zakir Babayev tərəfindən bərpa edilir. Ordubad Tarix-Diyarşünaslıq Muzeyinin bu binada fəaliyyət göstərməsi binanın şöhrətini daha da artırıb. Onu da deyək ki, böyük günbəzdən və ona bitişik 16 kiçik günbəzdən ibarət olan bu bina gözəl memarlıq üslubunda inşa olunub. Cəmi 150 eksponatla fəaliyyətə başlayan muzeydə hazırda 4 mindən artıq eksponat saxlanır.

Ordubadda olarkən görkəmli kimyaçı alim, akademik Yusif Məmmədəliyevin və Məhəmməd Tağı Sidqinin ev-muzeylərində də olduq. Hər iki böyük şəxsiyyətin ev-muzeyləri ilə tanışlıq gözəl təəssüratlarla yadda qaldı.

Nümayəndə heyəti ilə Buzxana memarlıq abidəsinə də tamaşa etdikdən sonra Ordubad torpağından ayrılaraq Şahbuza üz tutduq. Şahbuz rayonunda yerləşən Şahbuz Dövlət Təbiət Qoruğunda olarkən burada heyvanlar, quşlar aləminin gözəlliklərinin, unikallığının şahidi olduq.

Qoruğun elmi işlər üzrə direktor müavini Mürsəl Seyidov bizimlə söhbətində bildirdi ki, 2003-cü ildə yaradılan qoruq füsunkar Batabat gölü ilə Biçənək aşırımı ərazilərində yerləşir. Onun sözlərinə görə, bu ərazidə 2899 bitki növü yayılıb. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunaya malikdir. Ərazinin 85 faizini palıd, 5 faizini ardıc, ağıryarpaqlı ardıc, Araz palıdı, 7 faizini yemişan, qalan 3 faizini isə alma, alça, Şərq palıdı, vən, daş armud, acı badam və müxtəlif kollar təşkil edir. Şahbuz Dövlət Təbiət Qoruğunun ərazisində Avropa tüvüyü, kəklik, oxuyan silvi, adi kəklik, sarıköynək, bülbül, enliquyruq bülbül, meşə xoruzu, hop-hop kimi unikal quş növləri var. Muxtar respublika ərazisində məskunlaşmış quş növlərindən bir çoxu "Qırmızı Kitab"a daxil edilib. Burada 12 növ yırtıcı heyvan yaşayır ki, bu heyvanlardan Qafqaz qonur ayısı, canavar, tülkü, çöl pişiyi, meşə siçanı, porsuq, çöl donuzu, vaşaq və bir çox heyvanlara qoruğun da ərazisində rast gəlinir. Hətta bu yaxınlarda burada cüyürün də olduğu bildirilib.

Səfər çərçivəsində Batabat Dövlət Təbiət Qoruğunda olmağımız da bizə təkrarsız hisslər yaşatdı. Əsrarəngiz təbiəti ilə bizi mat qoyan Batabat yaylağının gözəlliyi, təmiz havası, qeyri-adiliyi ilə yanaşı, ərazidəki "Üzən ada" bizi həm təəccübləndirdi, həm də sevindirdi ki, Şahbuz təbiətinin dünyada analoqu olmayan belə bir adası var. Batabat yaylağı özünəməxsus landşaftı, bitki örtüyü ilə seçilir. Bu ərazilərdə bitən bitki növlərinə heyrətlə, heyranlıqla baxmamaq olmur.

Səfər çərçivəsində Ağbulaq İstirahət Mərkəzində yaradılan şəraitlə yaxından tanışlıq imkanı əldə etdik. Öyrəndik ki, İstirahət

Ardı 3-cü səhifədə

Əvvəli 2-ci səhifədə

Mərkəzi 2013-cü ildə istifadəyə verilib, 38 otaqdan ibarət mehmanxanada buraya üz tutan qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada qonaqlara təklif edilən qidalar sırf kənd məhsullarıdır, işçilər isə yerli əhalidən ibarətdir. Sevindirici haldır ki, mövsümlə əlaqədar olaraq bura ekoturlar təşkil edilir. Ümumiyyətlə, bu ərazilərə turist axını yüksəkdir və maraqlıdır ki, onlar qar örtüyü olan dağlıq ərazilərə daha çox maraq göstərirlər.

Muxtar respublikada üçgünlük səfər müddətində bu qədim diyarın həm ictimai-sosial həyatı, həm mədəniyyəti, həm elm və təhsili, həm də iqtisadiyyatı və turizm infrastrukturu ilə ətraflı tanış olmaq imkanı əldə etdik.

Naxçıvanda olarkən yerli medianın da vəziyyətilə maraqlandıq və media sektorunun da inkişafda olması bizi təəccübləndirmədi. Belə ki, burada dövlət tərəfindən KİV-in inkişafına güclü dəstək verildiyinin şahidi olduq. Öyrəndik ki, azad mətbuatın inkişafı, söz azadlığının təmin olunması və informasiyanın operativ çatdırılması istiqamətində nailiyyətlər əldə olunub. Muxtar respublikada televiziya və qəzetlərin redaksiyaları ən müasir avadanlıqlarla təchiz edilib. Hazırda burada "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, 4 jurnal, universitet televiziyası və radiosu daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir. Universitet televiziyası həftənin üç günü kabel şəbəkəsi vasitəsilə universitet şəhərciyində və açıq formada Naxçıvan şəhərində yayımlanır. Bundan başqa, ölkəmizdə və dünyada çap olunan 100-dən artıq qəzet və jurnal abunə yolu və mətbuat yayımı vasitəsilə muxtar respublika əhalisinə çatdırılır. Naxçıvan Dövlət Televiziyası və Radiosunun internet üzərindən bütün dünyaya yayılması, muxtar respublikada ölkə televiziyalarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi isə Naxçıvanın informasiya blokadasının yarılmasında əhəmiyyətli rol oynayıb.

Muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən yeniliklər də diqqətimizdən qaçmadı. Bu gün Naxçıvanda bütün yeni texnologiyaların müvafiq sahələrə tətbiq olunması böyük uğurdur. Qeyd edək ki, 4-cü nəsil mobil rabitə şəbəkəsinin, vətəndaşların müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyə Sistemlərinin istifadəyə verilməsi, yaşayış məntəqələrinə fiber-optik kabel xətlərinin çəkilməsi, sürətli internetə çıxış imkanlarının yaradılması informasiyaların daha çevik formada əldə olunmasına, ötürülməsinə və yayılmasına imkan verir. Bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet fəaliyyət göstərir. Muxtar respublikanın yaşayış məntəqələrində sosial paketdə olan 12 televiziya kanalının rəqəmsal yayımı təmin edilib və quraşdırılan Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək, digər imkanlardan yararlanmaq mümkündür. Muxtar respublikada rəqəmsal televiziya ötürücüləri quraşdırılıb ki, bu vasitə ilə 67 televiziya proqramının yayımı, Naxçıvan Dövlət Televiziyasının isə ölkədə ilk dəfə olaraq yüksəkkeyfiyyətli HD formatda yayımlanması təmin edilib. Burada jurnalist kadrlarının hazırlanmasına da xüsusi əhəmiyyət verilir. Belə ki, Ali Məclis Sədrinin təşəbbüsü ilə 50 illik zəngin kadr hazırlığı təcrübəsinə malik Naxçıvan Dövlət Universitetində 2001-ci ildən jurnalistika ixtisasının tədrisi həyata keçirilir. 2002-ci ildən isə Jurnalistika və dünya ədəbiyyatı kafedrası yaradılıb. Bu sahədə uğurlar bununla da bitmir. Universitetdə 2005-ci ildən etibarən mətbuat tarixi, eləcə də radiotelejurnalistika ixtisasları üzrə magistr hazırlığına başlanıb. Məlumatlara görə, ötən dövrdə universiteti jurnalistika ixtisası üzrə 200-ə yaxın tələbə bitirib. Məzunlar ölkəmizdə, eləcə də Naxçıvanda fəaliyyət göstərən KİV-lərdə çalışırlar. 2011-ci ildən isə universitetdə Media Mərkəzi fəaliyyətə başlayıb. Təhsil ocağında həm də "Qeyrət" mətbəəsi yaradılıb ki, burada "Yeni fikir" qəzeti və "Elmi əsərlər" jurnalı çap olunur. 2006-cı ildən tədris yönümlü Universitet televiziyası fəaliyyət göstərir. "Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsi uğurla tamamlanıb. Bu layihənin də ikinci mühüm tərkib hissəsi məhz rəqəmsal multimedia infrastrukturu ilə bağlıdır. Layihə çərçivəsində Universitet televiziyasında yaradılan yeni infrastruktur videodərslərin hazırlanmasında və distant tədrisin tətbiqində geniş imkanlar açıb. Bu məqsədlə televiziya müxtəlif texnologiyalarla təchiz olunub, burada virtual studiya quraşdırılıb. 2011-ci ildən efirə çıxan "Nuhçıxan" radiosunda universitetin gündəlik həyatını işıqlandıran informasiya proqramlarının, vətənpərvərlik mövzusunda verilişlərin, maraqlı müsahibələrin hazırlanmasında tələbələr böyük əmək sərf edir.

Muxtar respublikanın turizm potensialı haqqında ayrıca danışmaq yerinə düşər. Bu gün turistlər bu qədim diyara böyük maraq göstərir və əsrarəngiz Naxçıvan təbiətini böyük zövqlə izləyirlər. Sovet İttifaqı dövründə Naxçıvan sərhədyanı ərazi olaraq öz qapılarını turistlərin üzünə açmaq imkanlarından məhrum olub. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan bütün gözəlliyilə dünya turistlərinin qarşısında öyünmək imkanı qazanıb. Bu imkanlar sırasına muxtar respublikada turistlərə xidmət göstərən sərhəd-keçid məntəqələrini, ən müasir təyyarə qəbul edən beynəlxalq hava limanını, əlverişli yol-nəqliyyat infrastrukturunu, müasir tələblərə cavab verən komfortlu mehmanxanaları, zəngin milli mətbəx, yeməkxana və restoranların fəaliyyətini əlavə etsək, Naxçıvan turizminin inkişaf potensialının əlavə şərhə ehtiyacı qalmır. Qədim və zəngin tarixi-mədəni irsə, memarlıq abidələrinə, gəzməli yerlərə malik olan muxtar respublikaya gələn turistlərə böyük diqqət göstərilməklə yanaşı, həm də onların rahat gəzib-dolaşmaqları üçün tam təhlükəsiz şərait mövcuddur. Bu da son illər Naxçıvana gələn turistlərin sayının artmasına səbəb olub. Hazırda 400 mindən artıq turistin səyahət etdiyi Naxçıvan, eyni zamanda dövlət başçılarının işgüzar görüşlər keçirdiyi, tanışlıq-maarifləndirmə, müalicə-rekreasiya, idman-sağlamlıq və dini ziyarət məqsədilə səyahət edən turistlərin ən çox üz tutduğu məkana çevrilib. Burada artıq formalaşmış turizm potensialından bəhrə götürmək üçün tələb olunan çox ciddi təşkilat-kadr məsələləri ilə yanaşı, səmərəli təbliğat mexanizmi də mövcuddur.

Son zamanlar Naxçıvana Duzdağa müalicə üçün gələnlər də az deyil. Bu gün Naxçıvan təkcə bu kimi göstəriciləri ilə diqqəti cəlb etmir. Məlumdur ki, 2018-ci ildə Naxçıvan İslam mədəniyyətinin paytaxtı missiyasını yerinə yetirəcək. Əlbəttə, Naxçıvanın dünya ilə paylaşa biləcəyi çox dəyərləri var və ümid edirik ki, o, bu missiyanı, həmişə olduğu kimi, ləyaqətlə yerinə yetirəcək. Sözsüz ki, 2018-ci ildə Naxçıvan İslam mədəniyyətinin paytaxtı missiyasını yerinə yetirdiyi zaman muxtar respublikaya səfər edən qonaqlar Naxçıvanda tolerantlığın yüksək səviyyəsinin də əyani şahidi olacaqlar. Görəcəklər ki, turistlərin marağına səbəb olan və gələcək turistləri də öz sehrinə salacaq Naxçıvan abidələri yüksək səviyyədə mühafizə olunur, onların dünya mədəni irsinə qazandırılması üçün mümkün olan hər bir tədbir görülür. Naxçıvan şəhərinin tarixini və qədim mədəniyyətini özündə ehtiva edən Naxçıvanqalanın, Nuh Peyğəmbərin məzarüstü türbəsinin, xalqımızın qürur simvolu Əlincəqalanın bərpa olunması, Gülüstan türbəsinə yenidən nəfəs verilməsi, qədim tarixə və mühüm əhəmiyyətə malik Qarabağlar Türbə Kompleksinin bərpa işlərinə başlanması bu sahədə də Naxçıvanın öncül olmasının göstəricilərindəndir. Eyni zamanda müqəddəs Əshabi-Kəhf ziyarətgahına gələn zəvvarların da rahatlığı üçün hər cür şərait yaradılıb. Bundan başqa, Naxçıvanda yaşıllıqların qorunması və ərazisinin daha da artırılması istiqamətində işlər görülür. Naxçıvanın bütün kənd yaşayış məntəqələrinə aparan yolların müasir standartlara uyğun yenidən inşa olunması və kəndlərdə aparılmış müasirləşdirmə muxtar respublikada kənd-yaşıl turizmin inkişafına da geniş yol açıb. Bir vaxtlar hətta yerli sakinlərin çətinliklə keçdiyi kənd yolları ilə hazırda on minlərlə turist öz lüks avtomobilləri ilə Naxçıvanın dağ kəndlərinə gedə bilir.

*Ötən ildən başlayaraq Naxçıvanda keçirilən "Yaradıcı əllər", ölkəmizdə və dünyada ilk olan "Göycə", "Çörək", "Bal və arıçılıq məhsulları" və "Kətə" festivalları, on gün davam edən özünəməxsus Novruz şənlikləri Naxçıvanın turizm etiketinə çevrilib və böyük əks-səda doğurub. Naxçıvan şəhəri üzrə ekskursiya marşrutu, muxtar respublikanın paytaxtından Duzdağ şaxtaları, Əlincə qalası, Batabat, Əshabi-Kəhf, Ordubad, Gəmiqaya və Qarabağlar istiqamətinə təşkil olunan turlar turistlər tərəfindən maraqla qarşılanır.*

**Aydın QULİYEV**
***"Bakı-Xəbər" qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü***

## İran və Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşü keçirilib



Urmiya şəhərində İran və Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşü keçirilib.

Səfərin ilk günündə Azərbaycan gömrük xidməti nümayəndələri İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadət ilə görüşüb. Vali bütün sahələrdə qarşılıqlı əlaqələrin, o cümlədən gömrük münasibətlərinin arzuolunan səviyyəyə çatdırılmasının hər iki ölkənin və xalqlarımızın maraqlarına xidmət etdiyini önə çəkərək müştərək görüşlərin əhəmiyyətindən danışıb.

Azərbaycan gömrük xidməti nümayəndə heyətinin rəhbəri, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri Asəf Məmmədov İran İslam Respublikasının yaxın vilayətləri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında ildən-ilə inkişaf edən münasibətlərin iki ölkənin qarşılıqlı əlaqələrinə müsbət təsir etdiyini vurğulayıb.

İyul ayının 3-də Urmiya şəhərində keçirilən İran-Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşündə İran tərəfdən Qərbi və Şərqi Azərbaycan vilayətləri gömrüklərinin rəisləri, rəis müavinləri, Biləsuvar, Astara, Ərdəbil, Culfa və Poldəşt Gömrük idarələrinin rəisləri, Urmiya Yol İdarəsinin Tranzit məsələləri şöbəsinin müdiri və digər məsul şəxslər iştirak ediblər.

Azərbaycan gömrük xidməti nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəis müavini Səməd Qaralov, Astara, Culfa, Şahtaxtı Gömrük idarələrinin rəisləri, Biləsuvar Gömrük İdarəsinin rəis müavini, "Naxçıvanterminalkompleks" Birliyinin rəisi və digər məsul əməkdaşlar yer alıblar.

Qərbi Azərbaycan Vilayəti Gömrüyünün rəisi Pərviz Təqəvi gömrük xidməti nümayəndələri arasında keçirilən müştərək görüşlərin qarşılıqlı olaraq gömrük orqanlarının fəaliyyətinin daha da yaxşılaşdırılması, prosedurların sadələşdirilməsi və asanlaşdırılması istiqamətində müzakirələrin aparılması və mövcud çətinliklərin aradan qaldırılması yollarının tapılması baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Azərbaycan gömrük xidməti nümayəndə heyətinin rəhbəri Asəf Məmmədov iki ölkə arasında ticarətin həcminin artırılması, beynəlxalq statusa malik Şahtaxtı-Poldəşt gömrük-keçid məntəqəsinin, o cümlədən digər gömrük orqanlarının fəaliyyətinin arzuolunan səviyyəyə çatdırılması, tranzit imkanların maksimum dəyərləndirilməsi, avtonəqliyyat vasitələrinin keçidi zamanı yaranan problemlərin aradan qaldırılması, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin daha da yüksəldilməsi naminə işlərin intensivləşdirilməsinin vacibliyini qeyd edib.

İranın Şərqi Azərbaycan Vilayəti Gömrüyünün rəisi Ələsgər Abbaszadə iki ölkə arasındakı münasibətlərin gömrük əlaqələrinin də inkişafına müsbət təsir etdiyini, ticarətin və gediş-gəlişin ildən-ilə artdığını vurğulayıb.

Sonra İran gömrüyündə üç ildir ki, tətbiq edilən "bir pəncərə" prinsipi ilə bağlı təqdimat olub. Qeyd edilib ki, bu sistem üzərindən 22 dövlət təşkilatının onlayn qaydada birgə fəaliyyəti təmin olunub.

Görüşdə hər iki tərəfdən gömrük idarələri rəislərinin iştirakı ilə qarşılıqlı şəkildə keçidin daha da sadələşdirilməsi və asanlaşdırılması, ticarət əməliyyatlarının və tranzitin artırılması istiqamətində müzakirələr aparılıb.

Tərəflər Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin iş vaxtının 12 saatdan 16 saata çatdırılması, avtonəqliyyat vasitələrinin gömrük sərhədində yubanması hallarının qarşısının alınması, sığorta işinin səmərəli təşkili, gömrük nəzarətinin "bir dayanacaq" prinsipi əsasında həyata keçirilməsi, xüsusən də minik avtonəqliyyat vasitələri üçün gömrük sərhəd-buraxılış məntəqələrində tələb olunan sənədlər və ödənişlər barədə əvvəlcədən elektron qaydada məlumat verilməsi imkanlarının dəyərləndirilməsi və bir sıra digər mühüm məsələlərlə bağlı ilkin razılığa gəliblər.

Hər iki tərəf gömrük prosedurlarının asanlaşdırılması və sadələşdirilməsi istiqamətində işlərin davam etdiriləcəyini qeyd edib.

Görüşdə iştirak edən İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Mənsur Ayrom gömrük idarələri arasındakı əlaqələrin koordinasiyası üçün hər iki ölkədə gömrük katibliyinin yaradılmasını, Türkiyə gömrük xidməti nümayəndələrinin də iştirakı ilə üçtərəfli formatda görüşlərin təşkil olunmasını təklif edib.

Gömrük xidməti nümayəndələrinin müştərək görüşlərinin ildə bir dəfə olmaqla davam etdirilməsi qərara alınıb və növbəti görüşün gələn ilin may ayında Azərbaycanın Biləsuvar şəhərində keçirilməsi ilə bağlı ilkin razılıq əldə olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərlə bağlı seminar

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda fondun yerli orqanlarının pensiyaların təyinatı və fərdi uçotun təşkili sektorlarının işçilərinin iştirakı ilə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli Qanununun tətbiqi ilə əlaqədar seminar keçirilib.

Seminarı fondun sədri Əli Quliyev açaraq qeyd edib ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş yeni dəyişikliklər ölkədə pensiya təminatı sisteminin qabaqcıl dünya təcrübəsi əsasında daha da təkmilləşdirilməsinə xidmət edir.

Tədbirdə fondun aparatının Pensiya şöbəsinin müdiri Hikmət İsmayılov pensiya qanunvericiliyindəki yeni dəyişikliklər və onların mahiyyətindən bəhs edərək, fondun yerli orqanlarının pensiyaların təyinatı və fərdi uçotun təşkili sektorlarının işçilərinə qarşıda duran vəzifələr, konkret istiqamətlər üzrə görüləcək işlər barədə məlumat verib. Tədbirdə əsas məqsəd "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli Qanununun tətbiq və Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il martın 6-da imzaladığı 377 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 1 may tarixli Fərmanının icrası ilə bağlı fondun yerli orqanlarının pensiyaların təyinatı və fərdi uçotun təşkili sektorlarının işçilərinə müvafiq tapşırıq və izahatların verilməsi, həmçinin qanunvericiliyin tələbinə əsasən 1 iyul 2017-ci il tarixə kimi pensiya alanların pensiyalarının məbləğlərinin şərti çevrilməsi və sığortaolunanların 1 iyul 2017-ci il tarixə fərdi şəxsi hesablarında olan pensiya kapitalının qanunun tələblərinə müvafiq qaydada yenidən hesablanması olub.

Seminarda iştirakçıların sualları cavablandırılıb, onlara ətraflı izahatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Xalq istedadından qaynaqlanan teatrlar

***"Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" muxtar respublika Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq ötən illər ərzində xalq yaradıcılığı nailiyyətlərini əks etdirən müxtəlif səpkili, maraqlı və rəngarəng tədbirlər – festivallar, baxış-müsabiqələr, satış-sərgilər keçirilmişdir. Xalq teatrlarının muxtar respublika festivalı çərçivəsində bu teatrların yeni tamaşalarına ənənəvi baxışın təşkil olunması da bu qəbildən olan tədbirlər sırasındadır.***





Həmin xalq teatrlarının hər biri qədim diyarımızın şəhər və rayon mərkəzlərində vaxtilə fəaliyyət göstərmiş ən fəal dram dərnəkləri əsasında formalaşan özfəaliyyət teatr kollektivlərinin əsasında meydana gəlmiş və sonradan bu statusu qazanmağa müvəffəq olmuşdur.

Ötən əsrin 70-ci illərindən üzübəri bütün sahələr kimi, mədəniyyətə, o cümlədən xalq yaradıcılığına verilən dəyər nəticəsində Azərbaycanımızın bütün bölgələrində olduğu kimi, muxtar respublikamızda da bu sahə daim diqqət mərkəzində olmuş, xalq teatrları da bu diqqətdən kənarda qalmamışdır. Lakin 1990-cı illərdə baş vermiş hadisələr ucbatından nəinki özfəaliyyətdə, həmçinin peşəkar müəssisələrdə, ümumiyyətlə, respublika mədəniyyətində bir süstlük, durğunluq hökm sürmüşdür. Nəhayət, ümummilli liderimizin hakimiyyətə qayıdışı bütün ölkədə hər bir sahə kimi, milli mədəniyyətimizin də oyanışına və dirçəlişinə təkan vermişdir. Həmin dövrdən başlayaraq teatrlarımız, o cümlədən xalq teatrları da yeni inkişaf və tərəqqi yoluna qədəm qoymuşdur.

Muxtar respublikamızda xalq teatrlarının yenidən canlandırılması 2000-ci illərin əvvəllərinə təsadüf edir. Bu kollektivlərin fəaliyyətinin inkişaf etdirilməsi, onların həvəsləndirilməsi və yaradıcılıqlarının dəyərləndirilməsi məqsədilə həmin ildən muxtar respublikanın paytaxtında mütəmadi olaraq xalq teatrlarının festivallarını keçirmək qərara alınmışdır. Bu ilin iyun ayı ərzində də ənənəvi festival keçirilmişdir. "Xalq teatrlarının muxtar respublika festivalı – 2017" çərçivəsində Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində 5 kollektiv – Naxçıvan şəhər, Ordubad, Şərur, Babək və Şahbuz Rayon Xalq teatrları yaradıcılıq hesabatı vermişlər.

Festivalın təntənəli açılışı günü, iyunun 6-da ilk olaraq Babək Rayon Xalq Teatrı səhnəyə çıxdı. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 iyul tarixli qərarı ilə yaradılmış teatrın rəhbəri-rejissoru Sədaqət Əliyevadır. Kollektiv H.Mirələmovun "Xəcalət" tamaşasını təqdim etdi.

I Qarabağ müharibəsində döyüş yoldaşı olmuş iki dostun bu günümüzdə cəmiyyətdə tutduqları mövqedən bəhs edən tamaşanın quruluşçu rejissoru Yusif Əliyevdir. Rollarda İsmayıl Qurbanov, Stella Babayeva, Akif Əsədov, Səbinə Corayeva, Ələkbər İsmayılov və Vidadi Rəcəbli iştirak etmişlər.

Dahi teatr reformatoru K.S.Stanislavskinin "Böyük, yaxud kiçik rol yoxdur, böyük, ya da kiçik aktyor vardır!" ifadəsi bu tamaşada peşəkar aktyor, Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəblinin ifasında bir daha öz təsdiqini tapır. Epizodik həkim rolu ilə səhnədə görünən aktyor tez-tez işlətdiyi "Çox gözəl, çox pakizə!" sözlərilə tamaşaya bir şirinlik qatmaqla, məxsusi oyun tərzilə yaddaşlara hopub.

"Xəcalət" tamaşası festivalın "Ən aktual mövzulu tamaşa" qiymətləndirilməsi üzrə diploma layiq görülüb.

Festivala təqdim olunan ikinci tamaşa Şahbuz Rayon Xalq Teatrının ifasında S.S.Axundovun "Şəhsənəm və Gülpəri" komediyası oldu. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli qərarı ilə bu kollektivə "Xalq teatrı" adı verilmişdir. Teatrın rejissoru Ramiz Cəlilovdur. XX əsrin əvvəllərində Azərbaycanda qadın azadlığı probleminə həsr olunmuş tamaşada baş rolları Səadət Abdinova və Tahirə Hacıyeva, əsas rolları isə Gündüz Kəlbili, Şahin Orucov və İsa Qələndərov ifa etmişlər. Şahbuzluların dəfələrlə alqışlanan bu tamaşası "Ən yaxşı səhnə tərtibatı" qiymətləndirilməsi üzrə festivalın diplomuna layiq görülüb.

Müəllifi R.Əfəndiyev olan "Saqqalın kəraməti" adlı üçüncü tamaşanı muxtar respublikanın Əməkdar kollektivi, Ordubad Rayon Xalq Teatrı göstərdi. 1964-cü ildən "Xalq teatrı" kimi fəaliyyət göstərən bu kollektiv 1972-ci ildən görkəmli səhnə ustası, Xalq artisti, professor Kazım Ziyanın adını daşıyır. 1989-cu ildə Ordubad Rayon Xalq Teatrının 25 illik yubileyi dövlət səviyyəsində, böyük təntənə ilə qeyd olunmuşdur. Teatr bu münasibətlə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Naxçıvan MSSR-in Əməkdar kollektivi" fəxri adına layiq görülmüşdür. Yeri gəlmişkən, xüsusi vurğulamaq lazımdır ki, bu fəxri ad təsis olunduğu vaxtdan ilk dəfə təqdim olunmaqla məhz Ordubad Rayon Xalq Teatrına verilmişdir. Teatrın rejissoru Günəş Ağayevadır.

Quruluşçu rejissoru Azər Əliyev olan "Saqqalın kəraməti" tamaşasında baş rolda Günəş Ağayeva, digər rollarda Oruc Əliyev, Rəcəb Quliyev, Nadir Məhərrəmov, Həsən Məmmədov, Arzu Hüseynov, Nağı Əlisoy və Emin Yusifli çıxış etmişlər. Mövzusu ucqar bir kənddə avamlığın, mövhumatın ifşasından alınmış və aktyorların təbii oyunları, maraqlı musiqi parçaları ilə (tərtibçi Qasım Rəsulov) yaddaqalan bu tamaşa festivalın "Ən yaxşı aktrisa" qiymətləndirilməsi üzrə diplomuna layiq görülüb. Həmin diplomla baş rolun ifaçısı və teatrın rejissoru Günəş Ağayeva təltif olunub.

Naxçıvan Şəhər "Gənclik" Xalq Teatrı festivalda dördüncü olaraq S.Rüstəmin "Çimnaz xanım yuxudadır" adlı tamaşası ilə çıxış edib. 1978-ci ildə yaradılmış bu xalq teatrının rejissoru Akif Əsədovdur. Festivala təqdim edilmiş bu tamaşanın quruluşçu rejissoru və baş rolun ifaçısı Akif Əsədov olmuşdur. Digər rollarda Nurdinar Kərimova, Maral Rzayeva və Sultan Səfərov iştirak etmişlər. Bu tamaşa isə festivalın "Ən yaxşı aktyor" qiymətləndirilməsi üzrə diplomuna layiq görülüb.

İyunun 20-də festival Şərur Rayon Xalq Teatrının A.S.Puşkinin məşhur "Motsart və Salyeri" tamaşası ilə yekunlaşıb. Kollektivin bu təşəbbüsü sayəsində festivalda xarici dramaturgiyanın da təmsil olunması təqdirəlayiq göstərici kimi dəyərləndirilməlidir. Görkəmli teatr və kino xadimi, Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor Rza Təhmasibin adını daşıyan teatr 1981-ci ildə yaradılmışdır. Fərəhli haldır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı təsis edildikdən sonra ilk dəfə bu yüksək mükafatla 2006-cı ildə məhz Şərur Rayon Xalq Teatrı təltif edilmişdir. Teatrın rejissoru Prezident mükafatçısı Nəsimi Məmmədzadədir.

"Motsart və Salyeri" tamaşasına quruluş verən Nəsimi Məmmədzadə eyni zamanda Salyeri rolunda səhnəyə çıxmışdır. Motsart obrazını isə bu teatrın veteranlarından olan və bu yaxınlarda "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adını almış Neymət Sultanov ifa etmişdir. Hər iki aktyor oynadıqları baş rolların daxili aləminin açılmasına və məharətlə təqdim edilməsinə nail oldular. Tamaşanın yardımçı tərkibində İlkanə Cavadlı, Sevinc Qasımova, Gülnar Quliyeva, İlham Quliyev və Duman Məmmədbəyli iştirak etmişlər. Rəğbətlə qarşılanan bu tamaşa festivalın "Ən yaxşı rejissor işi" qiymətləndirilməsi üzrə diplomuna layiq görülüb.

Beləliklə, "Xalq teatrlarının muxtar respublika festivalı – 2017" də tarixə çevrildi. Belə festivallar bu kollektivlərdə məsuliyyət hissini, həmçinin nümunəvi çıxış etmək, layiqli yer qazanmaq, qalib olmaq həvəsini artırır. Məhz buna görə də yerlərdə xalq teatrlarına maraq, xüsusən gənclər arasında bilavasitə bu teatrın üzvü kimi səhnəyə çıxmaq meyilləri ilbəil artmaqdadır.

**Ələkbər QASIMOV**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***

---

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayevin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə çap olunmuş "Yod və uşaq orqanizmi" adlı kitabı oxuculara təqdim olunub.***



Yeni nəşrlər

# "Yod və uşaq orqanizmi"

Səhiyyə maarifi xarakteri daşıyan metodik vəsaitdə qeyd olunur ki, hər bir xalqın, dövlətin, ailənin ən böyük və qiymətli sərvəti uşaqlardır. Cəmiyyətin ən həssas və zərif üzvü olan uşaqların sağlamlığının qorunması onların hərtərəfli fiziki və əqli inkişafları üçün zəmin yaradır. Lakin həyatda elə element və mikroelementlər var ki, onlar da uşaqların sağlam böyüməsində böyük rol oynayır. Həmin elementlərdən biri olan yod uşaq orqanizmində bir çox faydalı funksiyaları yerinə yetirir. Qalxanvarı vəzin hazırladığı hormonlarda iştirak edir, çoxalma, boy artımı, maddələr mübadiləsi, hemoqlobinin qanda miqdarının normal səviyyədə saxlanması və digər proseslərdə çox mühüm rol oynayır.

Kitabda yod çatışmazlığının aradan qaldırılması yollarından bəhs olunur. Bildirilir ki, bu problemin həllində yodun qida ilə qəbulu əsas şərtdir. Buna nail olmaq üçün yodlaşdırılmış duzdan və yodla zəngin qidalardan istifadə etmək lazımdır. Muxtar respublikamızda duzun yodlaşdırılması sənaye üsulu ilə aparılır. Duzun tərkibində yodun miqdarına Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən daim nəzarət edilir.

Kitabda "Yod çatışmazlığının fəsadları", "Hipotiteozun, kretinizmin əsas əlamətləri", "Yod çatışmazlığının uşağın müxtəlif inkişaf dövrlərində klinikası" və digər bölmələr diqqəti cəlb edir.

Metodik vəsait müəllifin uzun illərin pediatrik təcrübəsi, müşahidəsi və müxtəlif tibbi ədəbiyyatlardan istifadəsi nəticəsində ərsəyə gəlmişdir. Hər bir ana üçün stolüstü kitab olacaq bu vəsaitdən Naxçıvan Tibb Kollecinin və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin tələbələri də istifadə edə bilərlər.

Metodik vəsaitin məsləhətçisi Naxçıvan Muxtar Respublika Xəstəxanası Endokrin xəstəliklər şöbəsinin müdiri Aysel Dünyamalıyeva, elmi redaktoru tibb üzrə fəlsəfə doktoru, dosent Elmar Rzayevdir. Metodik vəsait Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Elmi-Tibbi Şurasının qərarı ilə çap olunmuşdur.

**Hüseyn ƏSGƏROV**

---

# Futbol üzrə Şərur rayon birinciliyinə yekun vurulub



***Bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, idmanın inkişafına da dövlət qayğısı ən yüksək səviyyədədir. Təsadüfi deyil ki, uşaq və yeniyetmələrin bu sahəyə cəlbi, onların idmanla məşğul olmaları üçün yeni idman obyektləri tikilib istifadəyə verilir. Bu da idmanla məşğul olan insanların həm sağlamlığı, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün mühüm əhəmiyyət kəsb edir.***

Hazırda muxtar respublikada şəhər və rayonlarla yanaşı, kəndlərdə də idmanın kütləviliyinə nail olunması üçün mühüm addımlar atılır. Yeni istifadəyə verilən idman zalları, stadionlar kəndlərdə uşaq, yeniyetmə və gənclərin bu sahəyə marağını xeyli artırıb.

Ötən dövr ərzində istifadəyə verilən bu idman obyektlərindən biri də Şərur rayon Aralıq kənd stadionudur. Müasir standartlara cavab verən stadionda gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün bir sıra idman tədbirləri keçirilir. Bu tədbirlərdən biri də "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında futbol üzrə Şərur rayon birinciliyidir. İyunun 22-də start verilən rayon birinciliyinə artıq yekun vurulub. Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 14 kənd komandasının mübarizə apardığı birincilik olimpiya sistemi üzrə keçirilib. Gərgin idman mübarizəsi şəraitində keçən birinciliyin final görüşündə Aralıq və Çomaxtur kənd komandaları üz-üzə gəliblər. Oyunun ilk hissəsində iki dəfə önə keçən Aralıq kənd komandası hesabı sonadək qoruya bilməyib. İkinci hissədə daha əzmkar mübarizə aparan Çomaxtur futbolçuları hesabı bərabərləşdirməklə yanaşı, önə keçməyə müvəffəq olublar. Lakin son dəqiqələrdə meydan sahiblərinin qolu (3:3) görüşü penalti zərbələrinə aparıb. Bu seriyada zərbələri daha dəqiq yerinə yetirən Çomaxtur kənd komandası 5:4 hesabı ilə qalib gəlib və birinciliyin baş mükafatını qazanıb. Daşarx kənd komandası isə birinciliyi üçüncü pillədə başa vurub.

Sonda qalib komandalara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplom və kubokları təqdim edilib.

Qeyd edək ki, final görüşünü 300-ə yaxın azarkeş izləyib.

Aralıq kəndində keçirilən birincilik kənd sakinləri tərəfindən böyük sevinclə qarşılanıb. Birinciliyin bütün oyunlarını izləyən Akif Həsənov bizimlə söhbətində bildirdi ki, bu gün muxtar respublikanın bütün kəndlərində idmanın inkişafı mühüm əhəmiyyət daşıyır. Bunun da səbəbi yaradılan şəraitdir. Şərur rayonunun əksər kəndlərində gənclərin idmanla məşğul olmaları üçün idman obyektləri fəaliyyət göstərir. Təbii ki, bunlar gənclərimizin zərərli vərdişlərdən uzaq durmasında, onların sağlam fərd kimi cəmiyyətimizə qazanılmasında böyük rol oynayır. Bu gün Aralıq kəndində də gənclərin idmanla məşğul olmaları üçün hər bir şərait yaradılıb və onlara daim diqqət göstərilir. Keçirilən birinciliyin bütün görüşlərini izlədim və sevindirici haldır ki, gənclərimizin idmana olan marağı gündən-günə artır.

**Ceyhun MƏMMƏDOV**

---

### Bildiriş

"Barama" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200844261) fəaliyyətini dayandırdığından ləğv olunur.

### İtmişdir

Qasımov Elçin Firdovsi oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 548